**UOT 9 (94)**

***Çinarə Səfərova***
***Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimi***
***seferova.cinare@bk.ru***

# QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ÇƏRÇİVƏSİNDƏ TÜRKİYƏ-GÜRCÜSTAN ƏMƏKDAŞLIĞI

***Xülasə***

*Qara dəniz hövzəsi qədim zamanlardan müxtəlif xalqlar arasında iqtisadi və ticarət əlaqələrinin inkişafında ciddi rol oynamışdır. Müasir dövrdə isə nəqliyyat, rabitə, energetika, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və digər sahələrdə dövlətlər və xalqlar arasındakı əlaqələrin genişləndirilməsinə aolantələbat Qara dəniz regionunun əhəmiyyətini xeyli artırmışdır. Qara dəniz Balkanlar, Aralıq və Xəzər dənizi ölkələrini birləşdirməklə bu gün geosiyasi və geoiqtisadi amil kimi əhəmiyyət kəsb edir ki, bu da öz növbəsində burada regional əməkdaşlığın genişləndirilməsinə yönəlmiş yeni çağrışların ortaya çıxması ilə nəticələnmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaranması bu çağırışlara verilən cavablardan biridir.*

*Təşkilat çərçivəsində Türkiyə Respublikası ilə Gürcüstan Respublikası arasında 2001-ci ildə qəbul edilmiş və 2012-ci ildə yenilənmiş "QDİƏT-in Gələcək üçün İqtisadi Gündəliyi: güclənən QDİƏT tərəfdaşlığına doğru" sənədinə əsasən, nəqliyyat və ticarət, enerji, turizm, elm və texnologiya, ətraf mühitin mühafizəsi, o cümlədən zəruri infrastruktur, kənd təsərrüfatı, kiçik və orta sahibkarlığın inkişafı və s. kimi sahələrdə əməkdaşlıq edilir.*

***Açar sözlər:*** *Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, regional əməkdaşlıq, Türkiyə, Gürcüstan, təhlükəsizlik*

## *Giriş*

Cənubi Qafqazda təhlükəsizlik sahəsində əməkdaşlıq ilk növbədə, regionun inteqrasiyasını tələb edir.Tarixi təcrübə göstərir ki, ortaq iqtisadi maraqların olmadığı yerdə ümumi təhlükəsizlik maraqları da olmur.Bu baxımdan Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı böyük maraq kəsb edir. Qara dəniz hövzəsində iqtisadi əməkdaşlığı inkişaf etdirmək təşəbbüsü 1990-cı ildə Türkiyə Prezidenti Turqut Özal tərəfindən irəli sürülmüşdü. O, SSRİ, Türkiyə, Rumıniya və Bolqarıstanı əhatə edəcək "Qara dəniz çiçəklənmə və əməkdaşlıq zonası" yaratmaq təşəbbüsü ilə çıxış etmişdi. Bu addımlardan sonra edilən ilkin razılaşmalar çərçivəsində ölkələr arasında ilk görüş 19-21 dekabr 1990-cı ildə Ankarada keçirildi. Görüşə Türkiyə, Sovet İttifaqı, Bolqarıstan və Rumıniya ilə yanaşı Sovet İttifaqının nümayəndə heyətinə daxil olan Azərbaycan və onun nümayəndələri Moldova, Gürcüstan və Ermənistan xarici işlər nazirlərinin müavinləri iştirak ediblər. Yığıncaqda Türkiyə tərəfindən hazırlanan əməkdaşlıq təklifi də daxil olmaqla əsas prinsipləri əhatə edən layihə üzərində işlənilmiş nəticə olaraq Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılması razılaşdırılmışdır.

Sonrakı dövrdə SSRİ-nin süqutu və bunun nəticəsi olaraq baş vermiş geosiyasi dəyişikliklər bu təşəbbüsü kölgədə qoymadı. 1992-ci ildə Rusiya, Türkiyə və Ukrayna regional əməkdaşlıq ideyasını yenidən gündəmə gətirdilər. Qara dəniz ilə bu və ya digər dərəcədə əlaqəli olan digər ölkələr də sonradan bu ölkələrə qoşuldular. [1, s.63] 1992-ci ilin 25 iyununda İstanbulda Qara dəniz ölkələrinin iqtisadi əməkdaşlığına dair keçirilən zirvə toplantısında 11 dövlət-Azərbaycan, Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Ruminya, Türkiyə və Ukrayna tərəfindən qəbul edilmiş bəyannaməyə uyğun olaraq Qara dəniz İqtisadi Əməkdaşlığı yaradıldı. Təşkilatın fəailiyyəti demokratiya, sosial ədalət, insan hüquqları, qanunun aliliyi, əsas azadlıqlar və iqtisadi mülkiyyət kimi ümumi qəbul olunmuş dəyərlər əsasında regionda sülhün, sabitliyin saxlanılmasına və tərəqqiyə yönəlmişdir. Avstriya, Misir, İsrail, İtaliya, Polşa, Slovakiya və Tunis müşahidəçi statusuna malikdirlər. 2004-cü ilin aprel ayında Serbiya və Çernoqoriya dövləti də təşkilata üzv olmuşdur. 1992-ci il iyunun 25-də İstanbulda digər bir sənəd – əməkdaşlığın prioritet istiqamətlərini və əsas mexanizmini müəyyənləşdirən Bosfor bəyanatı da qəbul olundu [15]. Bu sənədi imzalamış dövlət və hökumət başçıları Qara dəniz iqtisadi əməkdaşlıq ideyasının tarixi zərurətdən, xalqlar arasında sülhü və konstruktiv əlaqələri inkişaf etdirmək maraqlarından irəli gəldiyini xüsusi olaraq bildirərək, azad bazar iqtisadiyyatının inkişafı, etibarlı və səmərəli mexanizmlərin yaradılması yolu ilə iqtisadi əməkdaşlığı genişləndirməyin mümkünlüyünü önə çəkdilər. Bosfor bəyanatında Qara dəniz regionunun ciddi münaqişələrlə üzləşdiyi və yeni münaqişələrin meydana gəlmə təhlükəsinin olması, mövcud münaqişələrin ATƏT-in prinsiplərinə uyğun həll edilməsinin, təcavüzə, zora, terrora və qanunsuzluğa qarşı mübarizənin, sülh və ədalətin bərpa olunmasına yardım göstərməyin vacibliyi diqqət mərkəzində saxlanıldı.1992-ci ildə iqtisadi təşəbbüs kimi meydana gələn Qara Dəniz İqtisadi Əməkdaşlığı 1998-ci ilədək hökumətlərarası mexanizm formasında mövcud olmuşdu. Bundan sonra təşkilata çevrilmişdir.

***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılması təşəbbüsü***

Türkiyənin Gürcüstana siyasəti təkcə ikitərəfli əməkdaşlıq formatında deyil, həm də çoxtərəfli siyasi dialoq səviyyəsində inkişaf edir. Bu baxımdan, Türkiyə Gürcüstanla münasibətlərini "iş birliyi qurmaq üçün əlavə imkanlar açan" Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) çərçivəsində də qurur [7, s. 203]. Bu bölgədə regional əməkdaşlıq ideyasının tarixi XX əsrin 20-ci illərindən başlayır. 1986-cı ildə Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın SSRİ-yə səfəri zamanı bu ideya yenidən aktuallaşmışdı. Onun reallaşdırılması ilə bağlı 1990-cı ildə Turqut Özal tərəfindən ilk təşəbbüs göstərilmişdir. Bu əməkdaşlığın regional forum formatında reallaşdırılması ideyasını isə 1990-cı ildə Türkiyənin ABŞ-dakı səfiri Şükrü Elehdağ irəli sürmüşdür. İrəli sürülən təşəbbüs 1990-cı ildə Ankarada Türkiyə, SSRİ, Rumıniya və Bolqarıstan nümayəndələrinin ilk görüşünü təşkil edən Türkiyə Prezidenti Turqut Özal tərəfindən dəstəkləndi [4,s.24]. Bu təşəbbüs iqtisadi quruculuq proseslərinin mərkəzində olmağa çalışan Türkiyənin mənafelərindən irəli gəlirdi və regional dövlətlərin siyasi əlaqələri və ayrıca "qida, istehlak malları və enerji qaynaqlarına olan

ehtiyaclarını ödəmək" məqsədi daşıyırdı. SSRİ-nin süqutu yalnız Qara dəniz bölgəsindəki beynəlxalq təşkilatın üzvlərinin sayını genişləndirmədi, həm də bu bölgənin Türkiyə Respublikasının xarici siyasətindəki əhəmiyyətini artırdı, həmçinin bölgəni bir növ dəhliz kimi qəbul etməyə başlayan Avropa, Orta Asiya və Qafqaz ölkələri üçün nəqliyyat marşrutları imkanı yaratdı [8, s.43].

QİƏ təşəbbüsü 1992-ci ilin fevralında İstanbulda Qara dəniz ölkələri xarici işlər nazirlərinin qeyri-rəsmi görüşündə irəli sürüldü. Elə həmin ilin iyun ayında İstanbulda Qara dəniz bölgəsi ölkələrinin ilk zirvə iclası keçirildi, bu iclasda beynəlxalq bir təşkilatın yaradılmasına başlanğıc olan Qara Dəniz İqtisadi Əməkdaşlıq bəyannaməsi və "Boğaziçi bəyanatı" adlı çoxtərəfli sənəd imzalandı. [17] QİƏ yalnız Qara dənizə çıxışı olan ölkələri deyil, həm də çıxışı olmayan dövlətləri də birləşdirdi. Qara Dəniz İqtisadi Əməkdaşlıq bəyannaməsində təşkilatın qurucularının Avropada gedən dərin və sürətli dəyişiklikləri, eyni zamanda qitə xalqlarının yeni sülh və təhlükəsizlik dövrü yaratmaq istəklərini nəzərə aldıqları qeyd edilmişdi. İştirakçı dövlətlərin potensialı dəyərləndirildi və coğrafi yaxınlığın qarşılıqlı, faydalı iqtisadi əməkdaşlığı genişləndirmək üçün yeni fürsətlər yaradacağı da vurğulandı. Təşkilatın fəaliyyət məqsədində üzv dövlətlərin dünya iqtisadiyyatına daha yüksək səviyyədə inteqrasiyasına nail olmaq, dostluq və mehriban qonşuluq münasibətləri ilə bölgədə sülhün və sabitliyin təmin edilməsi elan edildi. Təşkilatın əsas prioritet vəzifələri isə bunlardır: kiçik və orta sahibkarlığa dəstək vermək, ticarəti genişləndirmək, investisiya, kapital axını və müxtəlif növ sənaye kooperasiya formaları üçün müvafiq şəraitin təmin edilməsi, enerji mənbələrinin istehsalı və paylanması sahəsində əməkdaşlığın təmin edilməsi və s. Bu məsələlər iştirakçı ölkələrin sektor şöbələri rəhbərlərinin görüşləri zamanı qəbul edilmiş QİƏ sənədləri üçün əsas olmuşdu [5, s.27].

"Boğaziçi bəyanatı"nda gələcəyə dair ümumi bir baxışla və qarşılıqlı, faydalı əməkdaşlıq əsasında dövlət və hökumət başçılarının Qara dənizi sülh, azadlıq, sabitlik və firəvanlıq bölgəsinə çevirməyi ümid etdikləri vurğulanırdı.[17] Beləliklə, bu iki sənədin əsaslı təhlili göstərir ki, təşkilatın təməl prinsipləri Qara dəniz bölgəsi dövlətlərinin yüksək səviyyədə iqtisadi əməkdaşlığı təmin etmək istəyinə və bu yaxın münasibətlər əsasında SSRİ-nin dağılması nəticəsində yaranan etnik ziddiyyətləri aradan qaldırmağa əsaslanır. Təşkilatın yaradılması istiqamətində ən vacib addım QDİƏT nizamnaməsinin imzalandığı 5 iyun 1998-ci il tarixli Yalta iclası idi. Bu iclas əməkdaşlıq prinsiplərini, hədəflərini və sahələrini əhatə edirdi. 1999-cu il 1 may tarixində nizamnamə QDİƏT üzvü olan ölkələrin parlamentləri tərəfindən təsdiq edildi və bundan sonra "bu regional təşəbbüs tam hüquqlu bir beynəlxalq təşkilata çevrildi" [6, s.73]. Balkanlar və Qafqaz arasında bir növ körpü olan təşkilat, təxminən 20 milyon $km^2$ ərazi və 350 milyondan çox insanı olan ölkələri əhatə edir. Təşkilata 13 üzv dövlət daxildir: Azərbaycan, Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Serbiya, Şimali Makedoniya, Türkiyə və Ukrayna. Təşkilatın Daimi Beynəlxalq Katibliyi İstanbulda yerləşir. QDİƏT-in ali qərarvermə orqanı təşkilata üzv dövlətlərin Xarici İşlər Nazirlər Şurasıdır. Qara dəniz hövzəsi ölkələri arasında əməkdaşlığın təşkilati əsaslarının yaradılması istiqamətində atılmış

növbəti addım Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Assambleyasının yaradılması olmuşdu. Bu haqda bəyannamə Azərbaycan, Rusiya və Ukrayna, həmçinin Albaniya, Gürcüstan, Ermənistan, Moldova, Rumıniya, Türkiyə parlament sədrlərinin 1993-cü il fevralın 25-26-da İstanbulda keçirilmiş görüşləri zamanı qəbul edilmişdi. [19] 1993-cü ilin fevralında Qaradəniz İqtisadi Əməkdaşlığı Parlament Assambleyası (PABSEC) yaradıldı. [7, s.205] Görüşdə 1992-ci ildə QİƏ bəyannaməsini imzalamış 11 dövlətdənm 10-u iştirak edirdi [2, s. 28]. Məqsədi Qara dəniz dövlətlərinin çoxtərəfli iqtisadi əməkdaşlığının inkişafına parlament köməyi ilə bölgədə siyasi sabitliyin möhkəmləndirilməsi idi. Parlament Assambleyasının yaradılmasında əsas məqsəd əməkdaşlığın hüquqi bazasını formalaşdırmaq, milli parlamentlər vasitəsilə xalqları həyata keçirilən fəaliyyət haqqında məlumatlandırmaq, deputatlar və parlamentlər arasında dostluq əlaqələrini inkişaf etdirməklə xalqlar arasında etimad və mehriban qonşuluq mühitinin yaradılmasına, iştirakçı-dövlətlərin üzv olduqları beynəlxalq təşkilatlarla əlaqələrinin inkişaf etdirilməsinə yardım etməkdən ibarətdir. İştirakçı dövlətlərin dövlət və hökumət başçılarının 1996-cı il oktyabrın 25-də qəbul etdikləri Moskva bəyannaməsində əməkdaşlıq məsələləri ilə yanaşı, Qara Dəniz İqtisadi Əməkdaşlığının institutsional və hüquqi bazasının möhkəmləndirilməsi məsələsi də diqqətdə saxlanılmışdı. Bəyannamədə qeyd olunur ki, dövlət və hökumət başçıları razılaşırlar ki, hal-hazırda əsas prioritet vəzifələrdən biri Qara Dəniz İqtisadi Əməkdaşlığının institutları və hüquqi bazasının möhkəmləndirilməsindən ibarətdir. Bu, Qara Dəniz İqtisadi Əməkdaşlığının səmərəliliyinin artırılmasına və hökumətlərarası, parlamentlərarası, işgüzar, maliyyə, akademik və ictimai əlaqələr də daxil olmaqla, bütün ölçülərdə onun qarşılıqlı əlaqələrinin daha yaxşı təmin olunmasına yardım edəcəkdir. Bu məqsədlə onlar Qara Dəniz İqtisadi Əməkdaşlığının regional iqtisadi təşkilata çevrilməsi prosesini davam etdirməyi məqsədəuyğun hesab edirlər [15]. QDİƏT-nın səmərəliliyini azaldan bir sıra iqtisadi, tarixi və siyasi məsələlər mövcuddur. Bu məsələlər təşkilata üzv dövlətlərin yüksək səviyyədə regional əməkdaşlıq və siyasi dialoq təmin etmək istəklərinə baxmayaraq, regional iqtisadi əməkdaşlığın genişləndirilməsinə mane olurdu. Problemlər arasında QDİƏT layihələrinin icrası üçün bir çox iştirakçı ölkələrin aşağı maliyyə imkanları əsas yer tuturdu. Təşkilata üzv ölkələrin qeyri-bərabər iqtisadi inkişaf göstəriciləri QDİƏT daxilində iqtisadi və siyasi inteqrasiyanı ləngidirdi. [3, s.4] Həmçinin Qarabağ münaqişəsi, Dnestryanı münaqişə, mürəkkəb Ermənistan-Türkiyə münasibətləri, Rusiya-Gürcüstan və Rusiya-Ukrayna qarşıdurmaları da daxil olmaqla bölgədə mövcud olan siyasi və etnik ziddiyyətlər də inteqrasiyanı zəiflədirdi. Eyni zamanda üzv ölkələrin beynəlxalq siyasətə fərqli baxışlarının olması və fərqli iqtisadi inkişaf istiqamətlərini seçmələri də mühüm rol oynayır.

### *Türkiyənin təşkilat daxilində çoxtərəfli siyasi dialoq səviyyəsində Gürcüstanla münasibətləri*

Türkiyə üçün QDİƏT xarici siyasətində prioriteti deyil. Bunun səbəbi Türkiyənin regional maraqlarını həyata keçirmək üçün bölgədəki ölkələrlə münasibətlərin ikitərəfli və ya üçtərəfli formatda inkişafına üstünlük verməsidir. Buna baxmayaraq,

təşkilat Türkiyə Xarici İşlər Nazirliyinin gündəmində əhəmiyyətli bir yer tutur, çünki Türkiyə Respublikasının xarici siyasətinin əsaslarından biri qlobal siyasi aktor olmaq üçün "ritmik diplomatiya və beynəlxalq əsas məsələlərdə iştirakı" həyata keçirməkdir. Ona görə də Türkiyə QDİƏT-də aktiv şəkildə fəaliyyət göstərərək təşkilatın bütün qurumlarının işində iştirak edir. Təşkilatın əhatəli fəaliyyət dairələrində Türkiyə üçün əsas prioritet enerji, nəqliyyat, rabitə, ticarət, iqtisadiyyat, elm, texnologiya sahələridir.

Türkiyənin Gürcüstan ilə regional əməkdaşlıq səviyyəsində davam edən münasibətləri təşkilat daxilində səmərəli işin göstəricisidir. Uğurlu əməkdaşlığın inkişafına səbəb təkcə Türkiyənin ikitərəfli münasibətləri dərinləşdirmək üçün başqa bir mexanizmi tətbiq etməkdəki marağı deyil, eyni zamanda Gürcüstanın da mövqeyi kömək edir. Gürcüstan Respublikasının prioritet xarici siyasət istiqamətlərindən biri Qara və Xəzər dənizi, Orta Şərq və Asiya ölkələri ilə iqtisadi əlaqələrin genişləndirilməsidir. [14] Gürcüstan hakimiyyəti QDİƏT-də iştirakını ilk növbədə ölkənin təhlükəsizliyini təmin etmək üçün Aİ-yə inteqrasiya yolunda bir addım kimi dəyərləndirir. 1999-cu ildə Tbilisi hökuməti QDİƏT çərçivəsində AB ilə Əməkdaşlıq Platformasının institusional bir mexanizmini yaratdı. [5, s.58] Gürcüstan hökuməti müəyyən maraqları kontekstində Türkiyə ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Gürcüstanın Türkiyədəki keçmiş səfiri G.Mgalobişvilinin sözlərinə görə, QDİƏT çərçivəsində Türkiyə-Gürcüstan münasibətlərinin inkişafı ikitərəfli əməkdaşlıq üçün əlavə stimul olacaqdır. [13]

Qara dəniz regionunda uzunmüddətli və sıx əməkdaşlığın təşviq edilməsi, eləcə də bir sıra müvafiq istiqamətlər üzrə iqtisadi aktivliyin artırılması vasitəsilə regionda sülhün, sabitliyin və inkişafın təmin edilməsi QDİƏT-in əsas prioritetlərindəndir.[18] Təşkilat çərçivəsində prioritet əməkdaşlıq sahələri kimi aşağıdakılar müəyyən edilmişdir: ticarət və investisiyalar, gömrük, energetika, nəqliyyat, elm və texnologiyalar, informasiya və kommunikasiya texnologiyaları, təhsildə investisiyalar, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, turizm, kiçik və orta müəssisələrin inkişafı.

İkitərəfli münasibətlərin regional əməkdaşlıq səviyyəsində inkişafına QDİƏT çərçivəsində nəqliyyat sahəsində imzalanan üç memorandum təsir göstərmişdir. 2002-ci ildə imzalanmış və 2006-cı ildə bütün iştirakçı ölkələr tərəfindən təsdiqlənmiş "Beynəlxalq Avtomobil Nəqliyyatının asanlaşdırılmasına dair anlaşma memorandumu" beynəlxalq avtomobil nəqliyyatının tədricən liberallaşdırılmasını təmin edərək təşkilata üzv dövlətləri bu hədəflərə çatmaq üçün konkret addımlar atmağa çağırırdı. Bu hədəflərin reallaşdırılması kontekstində Türkiyə malların daşınmasında istifadə olunan ticarət nəqliyyat vasitələrinin tək bir səyahətini təmin edən QDİƏT Tranzit Sənədini imzaladı [5, s.42]. Türkiyə ilə Gürcüstan arasında viza rejiminin sadələşdirilməsi məsələsinə baxılmışdır. 2006-cı ildən isə vizasız rejim tətbiq olunur. 2008-ci ildən Sərbəst Ticarət və Gəlirlərə İkiqat Vergitutmanın qarşısının alınması və iki ölkə arasında vergidən yayınmanın qarşısının alınması haqqında qanun qüvvəyə minmişdir. 2011-ci ildə şəxsiyyət vəsiqəsi ilə ortaq sərhədi keçmək barədə Türkiyə-Gürcüstan razılaşması ikitərəfli münasibətlərin inkişafına doğru müsbət bir addım idi. Qəbul edilmiş qərarlar nəqliyyat infrastrukturunun və turizmin inkişafına ikitərəfli və çox-

tərəfli səviyyədə təsir göstərmişdir. 2007-ci ilin aprelində imzalanmış və 2008-ci ildə təsdiqlənmiş növbəti "Qara dəniz bölgəsindəki dəniz yollarının inkişafına dair anlaşma memorandumu" xüsusi əhəmiyyət kəsb edir. Bu regional nəqliyyat dəhlizlərinin inkişafı və dünya nəqliyyat sisteminə inteqrasiyanı təmin edir. [7, s.207] Həmçinin razılaşma Qara, Aralıq və Xəzər dənizi arasında nəqliyyat kommunikasiyalarının həyata keçirilməsi üçün lazımi infrastrukturun yaradılması və inkişaf etdirilməsini hədəfləyir. Eyni zamanda layihə Türkiyə-Gürcüstan əməkdaşlığının dərinləşməsinə təkan verirdi [8, s.44]. QDİƏT ölkələrini əhatə edəcək dairəvi nəqliyyat dəhlizinin yaradılması təşkilatın əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Qeyd etmək lazımdır ki, başqa təşkilatlar tərəfindən irəli sürülmüş Qara Dəniz Ümumavropa Nəqliyyat Zonası (PETRA), Cənubi Avropa Əməkdaşlıq Təşəbbüsü (SECİ) və TRASEKA kimi regional təşəbbüslərin həyata keçirilməsi öz növbəsində QDİƏT daxilində nəqliyyat sistemlərinin inkişafına gətirib çıxarır. Regionda nəqliyyatın inkişaf etdirilməsində Azərbaycan, Gürcüstan və Türkiyə mühüm strateji əhəmiyyətə malikdir, çünki bu ölkələri əhatə edən nəqliyyat sistemləri təkcə QDİƏT-ə üzv dövlətlər arasında deyil, ümumilikdə Avropa ilə Mərkəzi Asiya arasında əlaqələrin genişlənməsini təmin edir. Eyni zamanda, Azərbaycandan keçən "Şimal-Cənub" nəqliyyat dəhlizi Şimali Avropa ölkələrinin və Rusiyanın Hind okeanına ən qısa yolla çıxışına imkan verir. Son nəticədə bütün bunlar həm ölkələrarası, həm də regionlararası iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə səbəb olur. Məsələn, təkcə 2000-ci il ərzində Qara dəniz regionu vasitəsilə Avropadan Asiyaya və əks istiqamətdə 7,6 milyon konteyner daşınmışdı [1, s.67]. QDİƏT çərçivəsində Türkiyə və Gürcüstan arasında telekomunikasiya sahəsində də əməkdaşlıq edilir. Telekommunikasiya layihələri arasında yerüstü fiber optik kabellər və radio rabitə sisteminin birləşdirilməsinə yönəlmiş Şərqi Qara Dəniz Telekommunikasiya Layihəsi xüsusi əhəmiyyət kəsb edir. Türkiyə Gürcüstana Rize-Poti marşrutu boyunca fiber optik kabel çəkmə layihəsinin icrası üçün sərmayələr qoymuşdur [16]. Təşkilatda enerji əməkdaşlığı Türkiyə-Gürcüstan əlaqələrinin inkişafı üçün prioritet sahələrdən biridir. QDİƏT çərçivəsində enerji səmərəliliyinin artırılması, neft və qaz nəqli, nəqliyyat marşrutlarının şaxələndirilməsi, enerji proqramları barədə məlumat bazalarının yaradılması və s. istiqamətində layihələr həyata keçirilmişdir. Türkiyə və Gürcüstan ətraf mühitin qorunması sahəsində digər QDİƏT üzv ölkələri ilə əməkdaşlıq edirlər. Təşkilat çərçivəsində Qara dənizin çirklənməsinin qarşısını almaq və dəniz mühitinin vəziyyətinə nəzarət etmək üçün Qara Dəniz Komissiyası yaradılmışdır. Elm sahəsindəki əməkdaşlıq nəticəsində və Türkiyənin dəstəyi sayəsində 1995-ci ildə Tbilisidə Beynəlxalq Qara Dəniz Universiteti açılmışdır. [12] Beləliklə, Türkiyənin QDİƏT daxilində Gürcüstana qarşı siyasətinin kifayət qədər təsirli olduğu aydın görünür.

***Qara dəniz hərbi əməkdaşlıq tapşırıq qrupu (BLACKSEAFOR) regional təşəbbüsü çərçivəsində Türkiyə -Gürcüstan münasibətləri***

Təşkilata üzv dövlətlərin çoxtərəfli görüşləri Türkiyə-Gürcüstan danışıqları üçün əlavə bir platforma yaradır. Türkiyə-Gürcüstan münasibətlərini Qara dəniz hərbi

əməkdaşlıq tapşırıq qrupu (BLACKSEAFOR) regional təşəbbüsü çərçivəsində xüsusiyyətlərini görməməzlikdən gəlmək mümkün deyil. 1998-ci ildə Türkiyə və Rusiya regional əməkdaşlığı genişləndirmək və əlaqələri gücləndirmək yolu ilə Qara dəniz bölgəsində sülhü və sabitliyi gücləndirmək üçün Qara dəniz hərbi əməkdaşlıq qrupu "BLACKSEAFOR"u başlatdı. [10] Rusiya-Türkiyə təşəbbüsünü ilk dəstəkləyən ölkələr Gürcüstan, Bolqarıstan, Rumıniya və Ukrayna oldu. Nəticədə 2 aprel 2001-ci ildə çoxmillətli bir dəniz hərbi əməkdaşlıq qrupu yaradıldı. Başlanğıcda əməkdaşlıq qrupunun əsas vəzifələri axtarış-xilasetmə və humanitar əməliyyatlar, dəniz minalarının təmizlənməsi, ətraf mühitin monitorinqi, birgə təlimlər və xoşməramlı səfərlər müəyyənləşdirildi [7, s.278]. Türkiyə-Gürcüstan münasibətləri kontekstində Türkiyə bu qrupu ikitərəfli strateji əməkdaşlığın gücləndirilməsi üçün yaxşı bir vasitə kimi qiymətləndirdi. 2004-cü ildən Türkiyə dəniz donanması şübhəli gəmilərə nəzarət etmək üçün Qara dənizi daim nəzarətdə saxlayır və onlara qarşı heç bir güc tətbiq edilməsinə icazə vermir. Elə həmin il Türkiyənin təşəbbüsü ilə 11 sentyabr 2001-ci ildən sonra beynəlxalq əməkdaşlıq üçün aktuallaşan terrorizm və kütləvi qırğın silahlarına qarşı mübarizə aparmaq üçün beynəlxalq bir qrupun fəaliyyətinin genişləndirilməsinə başlanıldı. Qrupu yaradarkən Türkiyənin məqsədi regional dövlətlər arasında liderliklərini təmin etmək idi. Bundan əlavə, Türkiyə bütövlükdə Avrasiya bölgəsindəki rolunu artırmağa, ABŞ və NATO-nu geri planda qoyaraq müstəqil bir qüvvə kimi davranmağa çalışdı. Baş verən regional münaqişələr dəfələrlə qrupun fəaliyyətində səmərəliliyi və canlılığını şübhə altına almışdı. 2008-ci ildə Gürcüstan-Cənubi Osetiya münaqişəsindən sonra Gürcüstan BLACKSEAFOR -dan qüvvələrini çıxardı. Yalnız 2011-ci ildə ölkənin "Suxumi" sahil mühafizə artilleriya qayığı "BLACKSEAFOR"un 10 illiyi ilə əlaqədar Bosfor boğazında dəniz paradına qatıldı [9, s.38]. 2012-ci ildən Gürcüstan tərəfi BLACKSEAFOR-da iştirak etməkdən imtina etməsinə baxmayaraq, 2013-cü ildən yenidən hərbi təlimlərin iştirakçısı oldu. 2014-cü ildə Krım Rusiyanın tərkibinə daxil olduqdan və Rusiya-Ukrayna münasibətlərinin pisləşməsindən sonra Ukrayna da BLACKSEAFOR-un təlimlərinə qoşulmaqdan imtina etdi. Rusiya 24 noyabr 2015-ci il tarixində Türkiyə ilə Suriya sərhədinin yaxınlığında Türkiyə hərbi hava qüvvələrinin F-16 qırıcı təyyarəsi tərəfindən Rusiyanın Su-24 bombardmançı təyyarəsinin vurulması ilə əlaqəli hadisədən sonra Rusiya-Türkiyə münasibətlərinin qısamüddətli kəskinləşməsinin ardınca oxşar bir açıqlama verdi. [11] Beləliklə, faktlar göstərir ki, son nəticədə dəniz əməliyyat qrupu etibarlı birləşdirici qüvvəyə çevrilə bilmədi, yalnız hərbi-siyasi və hərbi-texniki danışıqlar üçün platforma olaraq qalır. Gürcüstan tərəfi BLACKSEAFOR-un aşağı səmərəliliyini ABŞ və NATO-nun birgə təlimlərdə iştirak etməməsi ilə izah edir. Gürcü politoloqu S. Petriaşvili yazır ki, Türkiyənin Qara dəniz üzərindəki liderlik rolunu qorumaq və artırmaq üçün dəniz sahəsini mühafizə etməsi, NATO və ABŞ da daxil olmaqla digər güclərin bölgədəki varlıqlarını genişləndirməsinə imkan vermir. BLACKSEAFOR-un aşağı məhsuldarlığı, iştirakçı ölkələrin fərqli xarici siyasət istiqamətləri ilə izah edilə bilər, çünki Rumıniya, Bolqarıstan və Türkiyə NATO üzvüdür, Rusiya KTMT-nin lideridir. BLACKSEAFOR dəniz qrupunun səmərəliliyinin aşağı olmasına baxmayaraq, Tür-

kiyənin beynəlxalq siyasətində və regional lider olmaq yolunda beynəlxalq bir qüvvə statusunu təmin edən bir vasitə olaraq xarici siyasətində mühüm yer tutur. Yaxın hərbi-siyasi əməkdaşlıq sayəsində beynəlxalq BLACKSEAFOR qrupu çərçivəsində Türkiyə və Gürcüstan bölgənin təhlükəsizliyi ilə bağlı məsələlərdə tam razılığa gəldilər.

Türkiyə tərəfindən 2004-ci ildə başladılan bir təşəbbüs də Qara dəniz Uyğunlaşma hərəkatıdır (Operation Black Sea Harmony). 2006-ci ilin axırına qədər Türkiyənin rəhbərlik etdiyi hərəkata 27 dekabr 2006-cı il tarixində Rusiya Federasiyası da qatılmışdır. Bu hərəkatın əsas vəzifəsi qeyri-qanuni fəaliyyətlərə qarışan, şübhə duyulan ticarət gəmilərini təsbit etmək və izləməkdir.

***Nəticə***

Türkiyə Cümhuriyyəti qurulduğu gündən etibarən regional və qlobal təşkilatlara üzv olmaq üçün səy göstərmiş bir çox iqtisadi və siyasi təşkilata üzv olmuşdur. Türkiyənin üzv olduğu təşkilatlarla əlaqələrinə baxıldıqda təşkilata üzv dövlətlərlə sahib olduğu tarixi yaxınlığı, mədəni bağlılıq və coğrafi mövqe kimi ortaq xüsusiyyətlərinin olması təşkilatla əlaqələr üzərindən həlledici təsir göstərir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin coğrafi, iqtisadi və siyasi cəhətdən bir-birilərinə yaxın və oxşar xüsusiyyətlərinin olması vacib üstünlüklər yaradır. Bu baxımdan iqtisadi əməkdaşlıq təşkilatlarına üzv ölkələrinin bir-biri ilə münasibətlərində ölkələrin bir-birilə qarşılıqlı olaraq tamamlayıcı elementlərə sahib olması asılılıq əlaqəsini gücləndirsə də, eyni zamanda üzv ölkələrin yaxın coğrafiyaya sahib olması ölkələrin siyasi inkişafına müsbət təsir göstərir. QDİƏT-ə üzv dövlətlərin iqtisadi problemləri həll edərək siyasi problemləri aradan qaldırmaq istəyi nəticə vermədi. Bölgə ölkələrini birləşdirmək və uzunmüddətli ikitərəfli və çoxtərəfli münasibətlər qurmaq üçün qarşılıqlı anlaşma və geosiyasi maraqların yaxınlaşması lazımdır. Buna baxmayaraq təşkilat fərqli mövqelərdə olan ölkələrə siyasi və iqtisadi dialoq qurma imkanı yaradır. Gürcüstanla ikitərəfli münasibətlərin dərinləşdirilməsində maraqlı olan Türkiyə QDİƏT-i ona təsir imkanlarını genişləndirən bir mexanizm kimi qəbul edir.

**İstifadə edilmiş ədəbiyyat**

**Azərbaycan dilində**

1. Şahmuradov A.Ş.Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Çərçivəsində Azərbaycanın Rusiya və Ukrayna ilə əməkdaşlıq imkanları.Bakı Universitetinin Xəbərləri.Humanitar elmlər seriyası,2013, № 3, -s. 62-71
2. Qasımlı M., Axundov N. Azərbaycan və beynəlxalq parlament təşkilatları. Bakı: Mütərcim, 1996. 86 s.

**Rus dilində**

3. Бабашина А.С., Никитина М.Г. ОЧЭС: Тенденции, проблемы, перспективы // Ученые записки Крымского федерального университета имени В.И. Вернадского. Экономика и управление. 2015. Т.1 (67). № 3. с.3-10.
4. Белякова Н.С. Роль и место Черноморского региона во внешней политике Турецкой республики на современном этапе // дисс. на соискание ученой степени к.п.н.: 23.00.04. М., 2015. 249 с.

5. Гончаренко С.Н. Черноморское экономическое сотрудничество: первые 25 лет. М.: Ин-т Европы РАН, 2018. 114 с.
6. Гончаренко, С.Н. Взаимодействие причерноморских стран: согласованные решения стран-участниц организации Черноморского экономического сотрудничества / С.Н. Гончаренко // в книге Большое Причерноморье: поиск путей расширения сотрудничества. - Под ред. А.А. Языковой. - М.: Ин-т Европы РАН, 2012. - с. 73-95.
7. Гриневецкий, С. Р. Геополитическое казино Причерноморья / С. Р. Гриневецкий, С. С. Жильцов,И. С. Зонн. – М. : Восток-Запад, 2009. 351 с
8. Эшба Э. Региональное сотрудничество на Черном море: достижения, проблемы, перспективы // Вестник МГИМО (у) МИД РФ. М., 2013. № 6(33). с. 42-48.
9. Теймурова А.Б. Инициативы Турции в сфере морской безопасности Черноморского региона в конце XX –Начале XXI в.[Электронный ресурс] // Электронный научный журнал «Ахонт» 2017. Вып. № 3. с. 38.

**İnternet resursları**

10. BLACKSEAFOR [Электронный ресурс]. Republic of Turkey, Ministry of foreign affairs. – URL: www.mfa.gov.tr/blackseafor.en.mfa
11. BLACKSEAFOR // ТАСС.Ведомости. 2015. 27 ноября. Россия приостанавливает участие в черноморской военно-морской группе
12. History of IBSU. [Электронный ресурс]. – URL:http://www.ibsu.edu.ge/Icerik.aspx?ID=220&Page1=121&Page2=History
13. Mgaloblishvili G. Ambassador Extraordinary and Plenipotentiary of Georgia to the Republic of Turkey. Georgia's view of the Organization of the Black Sea Economic Cooperation (BSEC) [Электронный ресурс] // Türkiye Cmhuriyeti Dışişleri bakanlığı. – URL: http://www.mfa.gov.tr/georgia_s-view-of-the-organization-of-the-black-sea-economic-cooperation-_bsec_-.tr.mfa
14. Основные направления внешней политики Грузии [Электронный ресурс] // Грузия Online. 2013. 7 марта. –URL: http://www.apsny.ge/2013/pol/1362718907.php [Müraciət tarixi: 26.05.2021 ]
15. PABSEC. Selected BSEC documents. Bosphorus Statement, Istanbul, 25 June 1992 //
16. http://www.pabsec.org/Documents.asp?hl=en&id=6
17. Szalanska J. Turkey and Georgia: Strategic connections [Электронный ресурс] // BILGESAM. 2012. 23 марта. – URL: http://www.bilgesam.org/en/incele/452/-turkey-and-georgia--strategic-connections/#.VT0V6tLtmko
18. The Bosphorus Statement. Istanbul, 25 June 1992. [Электронный ресурс]. – URL: http://www.bsecorganization.org/documents/declaration/summit/Reports/Bosphorus%201992.pdf
19. https://mfa.gov.az/az/content/191/qara-deniz-iqtisadi-emekdasliq-teskilati-qdiet
20. http://www.rncbsec.org/eng/bsec/business_ council.html //Russian National Committee for Black Sea Economic Cooperation. BSEC Organization", page "Business Council"

**Chinara Safarova**

**TURKEY-GEORGIA COOPERATION IN THE FRAMEWORK OF THE BLACK SEA ECONOMIC COOPERATION ORGANIZATION**

***Summary***

*The Black Sea basin has played a significant role in the development of economic and trade relations between different peoples since ancient times. In modern times, the growing demand for the expansion of relations between states and peoples in transport, communications, energy, industry, agriculture, ecology, tourism and other areas has significantly increased the importance of the Black Sea region. The Black Sea, uniting the countries of the Balkans, the Mediterranean and the Caspian Sea, is today an important geopolitical and geoeconomic factor, which in turn has led to new challenges to expand regional cooperation. The establishment of the Black Sea Economic Cooperation Organization is one of the answers to these challenges. Within the organization according to the document "BSEC Economic Agenda for the Future: Towards a Strengthening BSEC Partnership" adopted between the Republic of Turkey and the Republic of Georgia in 2001 and updated in 2012, in areas such as transport and trade, energy, tourism, science and technology, environmental protection, including the necessary infrastructure, agriculture, small and medium enterprise development are cooperating.*

***Keywords:*** *Black Sea, Economic Cooperation Organization, regional cooperation, Turkey, Georgia*

**Чинара Сафарова**

**СОТРУДНИЧЕСТВО ТУРЦИИ И ГРУЗИИ В РАМКАХ ОРГАНИЗАЦИИ ЧЕРНОМОРСКОГО ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА**

***Резюме***

*С древних времён бассейн Черного моря играл важную роль в развитии экономических и политических отношений между народами. В современную эпоху растущий спрос на расширение отношений между государствами и народами в области транспорта, связи, энергетики, промышленности, сельского хозяйства, экологии, туризма и других областях значительно повысил роль Черноморского региона. Сегодня Черное море, объединяющее страны Балкан, Средиземного моря и Каспийского моря является важным геополитическим и геоэкономическим фактором, что, в свою очередь, привело к новым вызовам для расширения регионального сотрудничества. Создание Организации Черноморского экономического сотрудничества – один из ответов на эти вызовы. В рамках организации в соответствии с принятым документом в 2001 году и обновленным в 2012 году между Турецкой Республикой и Республикой Грузия, «Экономическая повестка дня ЧЭС на будущее: на пути к укреплению партнерства ЧЭС» в таких областях, как транспорт и торговля, энергетика, туризм, наука и технологии, охрана окружающей среды, включая необходимую инфраструктуру, сельское хозяйство, развитие малых и средних предприятий.*

***Ключевые слова:*** *Организация Черноморского экономического сотрудничества, региональное сотрудничество, Турция, Грузия,безопасностъ*

Daxilolma tarixi: 02.10.2021
Çapa qəbul edilmişdir: 10.12.2021